Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Böyük ictimai-siyasi xadim Nəriman Nərimanov

**Nəriman Nərimanovun 150 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı- 2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Böyük ictimai-siyasi xadim -** Nəriman Nərimanovun 150 illik illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait tərt.ed. Ruhiyyə Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. -26s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

**Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2020-ci ilin aprel ayında Azərbaycanın görkəmli yazıçısı və dövlət xadimi Nəriman Nəcəf oğlu Nərimanovun anadan olmasının 150 illiyi tamam olur. Nəriman Nərimanov məşhur yazıçı, dramaturq, publisist və maarifçi kimi Azərbaycan ədəbiyyatının qabaqcıl ideyalarla və demokratik fikirlərlə zənginləşməsində böyük rol oynamışdır. Onun zamanın vacib məsələlərinə toxunan və əsas qayəsini maariflənməyə, mədəni yüksəlişə çağırış təşkil edən əsərlərində dərin insanpərvərlik ruhu hakimdir. Nəriman Nərimanov dramaturgiyası Azərbaycan teatrının inkişafına dəyərli töhfələr vermişdir. Milli bədii nəsr tarixində də özünəməxsus layiqli yer tutan vətənpərvər ədib, həmçinin ciddi və aktual publisistika nümunələrinin müəllifi olaraq tanınmışdır. Nəriman Nərimanovun bədii yaradıcılığı ilə ictimai və siyasi fəaliyyəti arasında üzvi bağlılıq vardır. Onun ömrünün mühüm hissəsi qəlbən inandığı və həyatının başlıca vəzifəsi sayaraq müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizələrdə keçmişdir. Siyasi çarpışmaların daha da gərginləşdirdiyi son dərəcə mürəkkəb şəraitə baxmayaraq, Nəriman Nərimanov milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətdə xalqımızın mənafeyini imkanlarının ən son həddinədək müdafiə etmişdir. O, keçmişimizin mədəni sərvətlərinin mühafizəsinə, ana dilinin saflığı məsələlərinə xüsusi diqqət yetirmiş, elmin, maarifin və mədəniyyətin inkişafı yolunda var qüvvəsi ilə çalışmış, dövrün milli məfkurə daşıyıcısı olan şəxsiyyətlərinə ehtiram və qayğı ilə yanaşmışdır. Nəriman

Nərimanovun XX əsr Azərbaycan tarixində əhəmiyyətli iz qoymuş ictimai-siyasi fəaliyyəti məhz ulu öndər Heydər Əliyevin nüfuzu və qətiyyəti sayəsində layiqli qiymətini alaraq bütöv şəkildə doğma xalqa çatdırılmışdır. Nəriman Nərimanovun 100 və 125 illik yubileylərinin təntənə ilə qeyd edilməsinin, Bakıda əzəmətli abidəsinin ucaldılmasının və ev-muzeyinin yaradılmasının, həmçinin ölkəmizin hüdudlarından kənarda xatirəsinin əbədiləşdirilməsinin təşəbbüskarı ümummilli lider Heydər Əliyev olmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın görkəmli yazıçısı, dövlət və ictimai-siyasi xadimi Nəriman Nərimanovun anadan olmasının 150 illiyinin qeyd edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezident




**Həyatı, yaradıcılığı, ictimai fəaliyyəti**

1870-ci ildə Tiflis şəhərində, yoxsul bir ailədə anadan olmuşdur. Kiçik ikən təhsilə maraq göstərmiş, qardaşından, əmisindən yazıb-oxumaq öyrənmiş, Azərbaycan ədəbiyyatı ilə də ilk dəfə həmin illərdə tanış olmağa başlamışdır. 1882-ci ildə Nərimanov Qori şəhərindəki Zaqafqaziya müəllimlər seminariyasına daxil olmuşdur. Seminariyada oxuduğu illərdə o, Azərbaycan, rus və Avropa ədəbiyyatı klassiklərini həvəslə öyrənməyə başlamışdır. Onun ilk qələm təcrübəsi də məhz həmin illərə təsadüf etmişdir. Seminariyanı bitirdikdən sonra Nərimanov 1890-cı ildə Tiflis quberniyasının Qızılhacılı kəndinə müəllim təyin olunmuşdur. Kənd məktəbində bir il işlədikdən sonra Nərimanov Bakıya köçmüş, şəxsi progimnaziyada müəllimlik etmişdir.

Gimnaziyadakı işlə yanaşı Nərimanov Bakıda geniş ictimai-siyasi fəaliyyətə başlamış, tez-tez müşavirələr keçirmiş, daha aktual mövzu olan vətənpərvərlik, milli qurtuluş və s. kimi problemlər haqqında çıxışlar etmişdir. O, 1894-cü ildə Bakıda müsəlman kütlələri üçün ilk xalq qiraətxana-kitabxanası təşkil etmişdir. Bunlarla yanaşı Nərimanov dərsliklər tərtib etmiş, bədii əsərlər və məqalələr yazmışdır. Nərimanovun Azərbaycan dilinin qrammatikası, ruslar üçün Azərbaycan dili və azərbaycanlılar üçün rus dili dərslikləri məhz həmin dövrdə yaranmış və müəllimlərə çox böyük fayda vermişdir. Nəriman Nərimanov "Təzə xəbərlər" adlı qəzet, "Sovqat" və "Məktəb" adlı jurnallar nəşr etmək haqqında məsələ qaldırmışdır. İctimai problemlərə toxunduğu "Nadanlıq" (1894), "Şamdan bəy" (1895) komediyasını, "Nadir Şah" (1899) faciəsini, "Bahadır və Sona" (1896-1908) romanını yazmış, N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etmişdir. Nəriman Nərimanov 1902-ci ildə Odessa Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Odessa həyatı Nəriman Nərimanov üçün inqilabi məktəb olmuşdur. 1905-ci ilin ikinci yarısında Odessa Universiteti müvəqqəti bağlanandan sonra O, Bakıya qayıtmışdır. Bakıda Nəriman Nərimanovun inqilabi və ədəbi fəaliyyətinin yeni mərhələsi başlanmışdır. O, M.Əzizbəyov, S.M.Əfəndiyev kimi kommunist inqilabçılarla bolşevik "Hümmət" təşkilatının işində iştirak etmiş, siyasi və ədəbi mövzularda məqalələr yazmış, mühazirələr oxumuş, 1906-cı ildə birinci Zaqafqaziya müsəlman müəllimləri qurultayının hazırlanmasına və keçirilməsinə rəhbərlik etmişdir. Nərimanov öz təhsilini başa çatdırmaq məqsədi ilə Odessaya qayıtmışdır. 1908-ci ildə

universiteti bitirib Bakıda şəhər xəstəxanasında işə düzəlmişdir. 1909-cu ilin əvvələrində Nərimanov partiyanın tapşırığı ilə Tiflisə getmiş, həmin ilin martında Tiflisdə inqilabi təbliğat üstündə həbsə alınmışdır. Yeddi ay Metex qalasında saxlandıqdan sonra iki il müddətinə Həştərxana sürgün edilmişdir. O, Həştərxanda da qızğın surətdə ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. 1913-cü ildə Bakıya qayıdan N.Nərimanov Qaraşəhər xəstəxanasında həkimlik etmişdir. O, özünün bu işləri ilə bərabər ədəbi fəaliyyətini də davam etdirmiş, "Pir" (1913), "Bir kəndin sərgüzəşti" (1915) hekayələrini yazmışdır. Fəhlələr arasında təbliğatla məşğul olmuşdur. 1917-ci ildə Nərimanov yerli inqilabçılarla birlikdə bolşevik "Hümmət" təşkilatına rəhbərlik etmiş və Azərbaycan dilində çıxan "Hümmət" qəzetinin baş redaktoru olmuşdur. 1918-ci ildə Bakı Xalq Komissarları Soveti yaranandan sonra o, şəhər təsərrüfatı xalq komissarı vəzifəsində çalışmışdır. Həmin ilin iyun ayında ağır xəstəliklə əlaqədar olaraq Həştərxan şəhərinə müalicəyə göndərilir. Sağaldıqdan sonra həmin şəhərdə bir sıra partiya orqanlarında, Həştərxan Quberniya İcraiyyə Komitəsində rəhbər vəzifədə işləmişdir. O, 1919-cü ildə Azərbaycan bolşevikləri və inqilabi hərəkatın vəziyyəti haqqında çıxış etmək üçün Moskvaya çağırılmışdır. Leninin təklifi ilə o, RSFSR Xalq Xarici İşlər Komissarlığında (XİN) Şərq məsələləri üzrə Xalq komissarının müavini vəzifəsinə təyin edilir. 1920-ci il aprelin 27-də, Azərbaycanda Sovet Hakimiyyətinin qələbəsindən sonra Nərimanov Nərimanov Azərbaycan İnqilab Komitəsinin Sədri, sonra isə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsində işləmişdir. SSRİ-nin 1-ci Sovetlər Qurultayında (1922,

dekabr) Zaqafqaziya Federasiyası təşkil ediləndən sonra Nərimanov Zaqafqaziya İttifaq Sovetinin Sədri, sonra isə 1922-ci ildə SSRİ Mərkəzi İcrayyə Komitəsinin Həmsədrlərindən biri vəzifəsinə seçilmişdir. Nərimanov ən mühüm dekret, qərar və müraciətnamələrin hazırlanmasında, xarici siyasət tədbirlərində, onların həyata keçirilməsində fəal çalışmışdır. Azərbaycanda XKS-nin sədri kimi özünün bütün qüvvəsini fəhlə sinfi ilə kəndlilərin ittifaqını möhkəmlətməyə, respublikada sosializm quruculuğuna sərf etmişdir. Azərbaycan SSR-in ilk Dövlət və hökümət başçısı olmuşdur.

N.Nərimanov 1925-ci ildə müəmmalı şəkildə ölmüş və Moskvada Kremlin divarları yaxılığında, Qızıl meydanda dəfn edilmişdir.

Nəriman Nərimanovun həyatı və fəaliyyəti Azərbaycan tarixinin və ictimai-ədəbi fikrini yeni dirçəlmə dövrünə təsadüf etmişdir. Çoxcəhətli ictimai, ədəbi və siyasi fəaliyyəti ilə xalqın azadlığı uğrunda mübarizə aparmış Nəriman Nərimanov Azərbaycan maarifçi-realist ədəbiyyatın inkişafında müstəsna rol oynamışdır.

Azərbaycan ədəbiyyatında Nəriman Nərimanov mütəfəkkir yazıçı M.F.Axundovun yaratdığı ədəbi məktəbin klassik ənənələrinin davamçısı olmuşdur.O, bir müəllim, ədəbiyyatımızda tarixi faciə janrının banisi, nasir, həkim, journalist, publicist və teatr xadimi milli mədəniyyətimizin inkişafına səmərəli təsir göstərmişdir.

Nəriman Nərimanovun ədəbi irsi zəngindir. XX əsrin axırlarında onun dövrü mətbuatda külli miqdarda felyetonları, ədəbi-tənqidi, elmi-publisist məqalələri, eyni zamanda, dram və nəsr əsərləri çap edilmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Nərimanov öz dram əsərləri ilə yanaşı, rus yazıçılarından tərcüməyə etdiyi pyesləri də tamaşaya qoymuşdur. 1892-ci ildə N.V.Qoqolun “Müfəttiş” komediyasını, 1915-ci ildə Qriqori Genin “Edam” pyesini Nərimanovun doğma dilimizə çevirməsi bu əsərlərdə ictimai həyata, despotizmə qarşı etiraz motivlərinin olması ilə bağlı idi. Nərimanovun istər tərcümə etdiyi, istərsə də yazdığı pyeslər Azərbaycan milli teatrının maarifçi-demokratik məzmununa və realist üslubuna rövnəq gətirmişdi. Teatrı geniş kütlələrlə sıx əlaqə saxlamaq üçün əsas vasitə hesab edən Nərimanov öz ürək sözlərini, fikirlərini geniş xalq kütlələrinəçatdırmaq niyyətilə “Nadanlıq”, “Şamdan bəy”, “Nadir şah” pyeslərini qələmə almışdır. “Nadanlıq” (1894) komediyası Nərimanovun ilk qələm təcrübəsizdir. Əsərin əsas ideyası feudal həyatının köhnə adət-ənənələrinə, cəhalətə və nadanlığa qarşı mübarizədir. Yazıçı komediyada ictimai həyata və ailəyə, məişətə möhkəm daxil olan feodal əxlaq qaydalarının törətdiyi dəhşətli fəlakətlərin tipik lövhəsini yaratmışdır. “Nadanlıq” əsərində kənddəki mədəni geriliyə səbəb olan cəhətləri açıb göstərməklə kəndlilərdə avamlığa və mərifətsizliyə, köhnə feudal əxlaq qaydalarına qarşı tənqidi münasibət oyatmaq istəyirdi. Nəriman Nərimanov “Nadanlıq” komediyasında yazıçı öz şəxsi mənafeyini ümumin xeyrinə qurban verən Məhəmmədağa və Ömər kimi maarifpərvər ziyalıları zülmət səltənətinə qarşı qoyur. İctimai həyat meydanına yenizə atılan Məhəmmədağanın və Ömərin köhnə feudal mühitinin mühafizəkar qayda-qanunlarına kəskin etirazı və yenilik uğrunda mübarizəsi komedoyanın əsasını təşkil edir. Yazıçı “Nadanlıq”da toxunduğu, həll

etmək istədiyi ictimai məsələlər qismən də olsa da, onun həssa qəlbinin çırpıntısını başa düşməyə imkan verir.

Yazıçının "Dilin bəlası, yaxud Şamdan bəy" (1895) komediyasında üfunətli burjua cəmiyyətinin doğurduğu fəlakətlərə qarşı çıxır, Şamdan bəy surətində dövrün xudpəsənd, lovğa, ikiüzlü "millət dostlarını" ifşa edirdi. Dramaturq bu əsərində ilk dəfə olaraq kapitalizm aləminin iyrənc bəlalarından xilas etmək üçün mütərəqqi qüvvələrin ittifaqı ideyasını irəli sürürdü.O dövrdə belə bir fikrin təbliğ edilməsi çox əhəmiyyətli idi.

Nəriman Nərimanov Şamdan bəy simasında qeyrətsiz ziyalıların fırıldaqlarını ifşa etməklə kifayətlənmirdi. Dramaturqun bu komediyada irəli sürüb həll etmək istədiyi məsələlər Azərbaycan zəhmərkeşlərinin məfkurəvi ictimai-əxlaqi tərbiyəsində əhəmiyyətli rol oynbamışdır. Millətindən və dinindən asılı olmayaraq N.Nərimanov bütün zəhmətkeşlərinin ümumi düşmənə qarşı mübarizədə birləşməsini istəyirdi. O, bütün millətlərin xoşbəxtliyini onların ittifaqında, birgə inqilabi mübarizəsində görürdü.

"Nadir şah" tarixi faciəsində Şərq xalqlarının siyasi-ictimai və mədəni inkişafında monarxiya hakimiyyətinin buxova çevrildiyini cəsarətlə söyləyir. Nərimanov İran xalqının tarixi keçmişinə müraciət edir, mövcud ictimai həyatın ziddiyyətlərini original bir yolla açıb göstərirdi. Iranın tarixi hadisələri onun üçün qabaqcıl ideyaları təbliğ etmək, çar üsul-idarəsinin mürtəce mahiyyətini ifşa etməkdən ötrü bir vasitə idi. Nərimanov "Nadir şah" da tarixi hadisələri əsas götürərkən Nadiri bütün ziddiyyətləri ilə verməyə çalışmışdır. Tarixi faciədə Nadir amansız quldur, böyük sərkərdə, tədbirli dövlət başçısı və müstəbid hökmdar kimi

verilmişdir.Nadirin faciəsinə səbəb feudal ictimai münasibətləridir. Dramaturq əsas diqqətini Nadirin şəxsiyyətinə, daxili aləminə verməklə, onun faciəsinin mahiyyətini açmış, beləliklə, feudal hakimiyyətinə nifrət oyatmışdır. “Nadir şah” da XVIII əsr hadisələri təsvir olunsa da, XIX əsrin ictimai ruhu, əsarətdən səbri tükənmiş xalqın qəzəb və nifrəti, oyanma əlamətləri öz ifadəsini tapmışdır.

N.Nərimanovun nəsr yaradıcılığı da səmərəli olmuşdur. “Bahadır və Sona” romanı, “Pir” povesti, “Bir kəndin sərgüzəşti” hekayəsi vətənin mədəni yüksəlişi, ictimai fikrin inkişafı yolunda onun apardığı mübarizə barədə aydın təsəvvür yaradır.

“Bahadır və Sona” əsərində xalqlar dostluğunu, “Bir kəndin sərgüzəşti”ndə Azərbaycan kəndlilərinin həyatını, məişətini, düşüncə tərzini təbliğ edir, “Pir” povestində isə Şərq cəhalətinə, avamlığa və mövhumata qarşı çıxırdı.

Bundan başqa N.Nərimanov 1905-ci ildə “Hümmət” təşkilatının görkəmli xadimlərindən biri kimi, Bakının neft mədənlərində,fabric və zavodlarında müsəlman fəhlələri arasında inqilabi ideyaları yayır, hamını beynəlmiləl birliyə çağırırdı. N.Nərimanov “Həyat” və “İrşad” qəzetləri ilə də əməkdaşlıq etmişdi. Yazıçı “Həyat” qəzetində “Nər”, “Arı bəy” imzası ilə çap etdirdiyi “Həftə fəryadı”, “Hərdənbir” və başqa felyetonlarında və məqalələrində ictimai-siyasi hadisələrə fəal münasibət bəsləyirdi.

## Yubiley tədbirlərinin keçirilməsi

**Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir…**

**Heydər Əliyev,**
*Ümumilli lider*

XX əsrin sonuna yaxın Azərbaycan respublikasının yenidən müstəqillik əldə etməsi nəinki qədim dövlətçilik ənənələrinə, həm də çox uzaq olmayan bir dövrdə yaşadığımız yüzilliyin birinci rübündə yaranmış dövlətçilik tarixinə marağı artırmışdır. Uzun illər "qəhrəmanları xalq yaradır" şüarı ilə şəxsiyyətlərinin fərdi, məxsusi obrazını yaratmağa imkan verməmişdir. Tarix elmi siyasətlə yaxından bağlı bir sahə kimi bu təsirin əsirinə çevrilmişdi.

Yeni dövr azərbaycan mütəfəkkiri-yazıçı-dramaturq, maarifçi, alim-pedaqoq, tibb maarifçisi, publicist-filosof, görkəmli ictimai və dövlət xadimi Nəriman Nərimanovun bütün həyatı xalqına dərin məhəbbətin və düşünülmüş fədakar xidmətin parlaq nümunəsidir. Təəssüf ki, tarixdə iz qoyub getmişlərin acı taleyi N.Nərimanovdan day an keçməmişdir. Onun şəxsiyyəti, zəngin iris, geniş və çoxcəhətlifəaliyyəti həmişə birmənalı qarşılanmamışdır. Müxtəlif dövrlərdətəqiblərə, hücumlara məruz qalmışdır. Sovet hakimiyyəti illərində belə, yüksək dövlət vəzifələri tutduğuna baxmayaraq, dövrün rəsmi ideologiyasına uyğun gəlməyən fikirlərinə görə, milli təmayülçülükdə təqsirləndirilmiş, ölümündən keçən bir neçə onilliklər ərzində onun əsərləri çap olunmamış, adının unutdurulmasına cəhdlər göstərilmişdir. Yalnız Stalinin şəxsiyyətinə pərəstiş tənqidinin siyasi ab-havanı yumşaltması sayəsində

N.Nərimanova münasibət dəyişmiş, əsərləri yenidən öyrənilməyə və tədqiq olunmağa başlanmış, o tariximizdə özünəlayiq yerini tutmuşdur.

Beləliklə, bu il böyük və ictimai xadim şəxsiyyət N.Nərimanovun 150 illik yubileyi qeyd olunur. Bu münasibətlə, respublikamızın hər bir müəssəsində kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda, muzeylərdə və s. yerlərdə N.Nərimanovun yubileyi ilə əlaqədar bir sıra tədbirlər planı hazırlanmışdır. Belə tədbirlərin siyahısı genişdir. N.Nərimanovun yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur ki, bunlardan kitab sərgilərini, şeir müsabiqələrini, oxucu konfranslarını, səhərcikləri, xatirə gecələrini, ədəbi-bədii gecələri misal gətirmək olar. İlk öncə kitabxanada N.Nərimanovun yubileyi ilə bağlı kitab sərgisinin keçirilməsi vacibdir. Belə ki, sərgidə N.Nərimanovun indiyə qədər çap olunmuş kitabları ilə yanaşı, dövrü mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "N.Nərimanov-150", "Mənalı yaşanan ömür", "Tarix unutmur", "Böyük ictimai-siyasi xadim", "Xalqın böyük oğlu" və s. İndi isə sərginin nümunəsini veririk.

1. **Başlıq: "N.Nərimanov-150"**
2. **N.Nərimanovun şəkillərinin sərgisi**
3. **Sitatlar**
4. **Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası**
5. **Kitablarının nümayişi**
6. **Şeir parçası**

## Görkəmli şəxsiyyətlərin Nəriman Nərimanov haqqında söylədikləri

Nəriman Nərimanovun əməkçi kütlələri maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxartdı.

**Heydər Əliyev,**
*Ümumilli lider*

Şəxsiyyət azadlığı, vicdan və fikir azadlığı, insanın heysiyyət və şərəf ucalığı N.Nərimanovun əsərlərində də, şəxsi həyatında da böyük ideal və zəruri tələb olmuşdur.

**Mir Cəlal,**
*professor*

N.Nərimanov bu gün, tariximizin indiki gərgin, kəşməkəşli dövründə hər bir azərbaycanlıya həmişəkindən daha yaxın və daha doğmadır.

**Kamal Talıbzadə**
*Professor*

N.Nərimanov bədii yaradıcılığı, ictimai-siyasi və inqilabi fəaliyyəti ilə Azərbaycan xalqının mənəvi həyatında dərin iz buraxmış, doğma xalqının inqilabi, milli şüurunun oyanmasına və inkişafına yaxından kömək etmişdir.

**Firudin bəy Köçərli,**
*Ədəbiyyatşünas*

İnsaniyyətə xidmət, insanpərvərlik N.Nərimanovun bədii yaradıcılığının əsasını təşkil edir.

**Məmməd Arif,**
*Akademik*

N.Nərimanov öz həyatını çoxmillətli Vətənimizdəki bütün qardaş xalqların xoşbəxt gələcəyi naminə mübarizəyə həsr etmişdir. Məhz buna görə onun adı qədirbilən nəsillərin xatirindən heç vaxt silinməyəcəkdir.

**Süleyman Rüstəm,**
Xalq şairi

**Haqqında çəkilən filmlər:** Nəriman Nərimanovun dəfni (film, 1925) (qısametrajlı sənədli film); Nəriman Nərimanov (film, 1966); Nəriman Nərimanov (film, 1972); Ulduzlar sönmür(1971)

Kitabxanalarda həmçinin N.Nərimanovun 150 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir.

Metodist:Nəriman Nərimanov ədəbi yaradıcılığa keçən əsrin 90-cı illərində dramaturq kimi başlamışdır. Azərbaycan ədəbiyyatın tarixində faciənin ilk nümunəsi Nəcəfbəy Vəzirov tərəfindən "Müsibəti-Fəxrəddin" pyesinin yaranması ilə meydana gəlmişdir. XIX əsrin sonlarında Nəriman Nərimanovun "Nadir şah" faciəsi işıq üzü gördü. Nəriman Nərimanov "Nadir şah" tarixi faciəsində Şərq xalqlarının siaysi-ictimai və mədəni inkişafında monarxiya hakimiyyətinin buxova çevrildiyini cəsarətlə söyləyir. Dramaturq İran xalqının tarixi keçmişinə müraciət edir, mövcud ictimai həyatın ziddiyyətlərini orijinal bir yolla açıb göstərirdi. "Nadir şah" əsərində hadisələr İranın XVIII əsr

tarixinə-Şah Sultan Hüseynin dövrünə təsadüf edir. Dramaturq İranda hökm sürən özbaşınalığı və zülmü Şsh Sultan Hüseynin dövlət başçısı kimi zəif olması ilə izah edir. O, dövlətinin daxili və xarici vəziyyətindən tamamilə xəbərsizdir. Bütün dövlət işlərini birinci vəziri Ədhəm xanın ixtiyarina vermişdir. Hakimiyyət başına keçmək arzusunda olan Ədhəm Şah Sultan Hüseynin on a olan etimadından və zəifliyindən sui-istifadə edir, ölkədə baş verən hadisələri ondan gizlədir, beləliklə, dövlətin iqtisadi və müdafiə qüdrətinin zəiflənməsinə şərait yaradır.

Kitabxanada yeniyetmə oxucular arasında "Nərimanovun Kremldə qətli" adlı kitabının müzakirəsinin təşkili məqsədəuyğundur. Təqdim olunan bu kitab dövrü mətbuatda adına tez-tez rast gəldiyimiz, bir sıra kitabların müəllifi Akif Aşırlının "Nərimanovun Kremldə qətli" adlı kitabıdır. Bu kitab XX əsr Azərbaycan tarixinin məyyən zaman kəsiyində səlnaməsini yazmış, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın həyatında rol oynamış Nəriman Nərimanovdan bəhs edir.Yazıçının qələmə aldığı "N.Nərimanovun Kremldə qətli" adlı kitabın icmalına kitabxanaçı bir çox qonaqları dəvət edə bilər. Tədbirdəki qonaqlara kitabxanaçı ilk əvvəl N.Nərimanovun həyat və fəaliyyətindən söz açır. Müəllif siyasi nöqteyi-nəzərlərdən kənar obyektiv mülahizələrə üstünlük verərək, Nərimanov barəsində indiyə qədər bəlli olmayan faktlara istinadən onun ömür yoluna işıq salmağa çalışıb. Kitabın adının bu cür qoyuluşu da Nərimanovun fəaliyyətinin faciəli sonluğuna tam uyğundur. İndi isə kitabxanaçı sözü kitabın müəllifi Akif Aşırlıya verir:

Nəriman Nərimanov barəsində çox yazılıb, haqqında müxtəlif səpkili fikirlər, ideoloji istiqamətli yanaşmalar ortaya qoyulub və indiyə qədər də yazılanlardan daha çox nələrsə yenidən işıq üzü görəcək. Şəxsiyyəti, fəaliyyəti tədqiqat obyekti olan bu dövlət və siyasət adamı bizlərə çox zaman qələm adamı kimi təqdim olunub.

Ölümündən ta 1956-cı ilə qədər adı yasaqlanan Nərimanov yalnız ötən əsrin yetmişinci illərində ictimai lider və dövlət adamı kimi ədəbiyyatlarda görsənməyə başladı. Hətta Nərimanovun adı ilə bağlı nə varsa, hamısı milliləşdirilməli, heykəlləri sökülməlidir kimi sərt tələblər də ortaya çıxdı. Nərimanov belə münasibətə layiq idimi? Bu və ya başqa suallara cavab tapmaq üçün oxucuların bu kitaba müraciət etməsi olduqca vacibdir. Sonda kitabxanaçı yazıçı Akif Aşırlıya öz minnətdarlığını bildirir.

Qeyd etdiyimiz kimi, ömrünü xalqının xoşbəxtliyi və səadəti uğrunda inamlı mübarizələrə həsr etmiş azərbaycanın böyük şəxsiyyəti N.Nərimanovun ictimai-siyasi, ədəbi irsi bütün dövrlərdə öz aktuallığı ilə diqqəti cəlb edir. N.Nərimanov, sözün həqiqi mənasında, mübariz bir vətənpərvər idi. O, bütün ədəbi, elmi yaradıcılığı və ictimai-siyasi fəaliyyəti ilə taleyini doğma xalqının ümummilli mənafeyinə bağlamış, çətinliklərlə dolu şərəfli bir həyat yolu keçmişdir. Hamıya məlumdur ki, N.Nərimanovun həyatı və fəaliyyəti Azərbaycan tarixinin və ictimai ədəbi fikrinin yeni dirçəliş dövrünə təsadüf etmişdir. Xalq içərisindən çıxmış, bütün həyatı boyu geniş və çoxcəhətli ictimai, ədəbi və siyasi fəaliyyəti ilə xalqın azadlığı və səadəti uğrunda mübarizə aparmış bu görkəmli xadim Azərbaycan maarifçi-realist və demokratik ədəbiyyatın inkişafında, onun yeni, mütərəqqi

keyfiyyətlərlə zənginləşməsində müstəsna rol oynamış, M.F.Axundovun yaratdığı ədəbi məktəbin klassik ənənələrinin davamçısı olmuşdur. O, bir müəllim, ədəbiyyatımızda tarixi faciə yanrının banisi, nasir, həkim, publisist və teatr xadimi kimi milli mədəniyyətimizin inkişafına səmərəli təsir göstərmişdir.

N.Nərimanovun yaradıcılıq yolunun geniş təbliği üçün kitabxanalarda həmçinin ədəbi-bədii gecənin keçirilməsi də nəzərdə tutulmuşdur. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə tədbirə həm kitabxanaçılar, həm də oxucular xüsusi həvəslə hazırlaşırlar. Tədbir iki ay qabaqcadan hazırlanır. Birinci hissə yubilyarın həyat və yaradıcılığı ilə bağlı olur. Gecəyə dəvət olunan qonaqlara söz verilir. İkinci hissə tədbirin bədii hissəsidir. Bədii hissədə N.Nərimanovun bir sıra əsərlərindən səhnələr hazırlanır, şeirlər dinlənilir. Ədəbi-bədii gecə bir çox başlıqlar altında keçirilə bilər. Məsələn, "N.Nərimanov: şəxsiyyət və zaman", "N.Nərimanov tarixi məsuliyyət daşıyan şəxsiyyətlərdəndir", "N.Nərimanov-150" və s. İndi isə "N.Nərimanov-150"adlı ədəbi-bədii gecənin ssenarisini veririk.

*Görkəmli ictimai-siyasi xadim, böyük ədib N.Nərimanovun şəkli və* ***“N.Nərimanov-150”*** *adlı başlıq divardan asılır. Səhnənin bir tərəfindən Nəriman Nərimanovun sitatı yazılıb yerləşdirilir və səhnə gül dəstələri ilə bəzədilir.*

**Sitat: Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.**

Aparıcılar səhnəyə daxil olurlar.

**I aparıcı:** Müəllimlər Seminariyasını bitirən və Hacı Zeynalabdin Tağıyevin köməyi ilə tibb təhsili alan gənc Nərimanın qəlbindəki xeyirxah və maarifpərvər duyğular ona dinclik vermirdi. O, xalqının üzləşdiyi çətinliklərdən çıxış yolu axtarırdı. Hələ gənc yaşlarında Bakıda kitabxana açmışdı. Onun arzusu azərbaycanlıların maariflənməsi idi. Nəriman Nərimanov bu istiqamətdə geniş fəaliyyət göstərirdi.

**II aparıcı:**1920-ci ildə Azərbaycanda sovet hökuməti quruldu. Bu hökumətin qurulmasında yaxından iştirak edən Nəriman Nərimanov həm də onun rəhbərlərindən biri idi.1920-ci ildə Türkiyə ən sıxıntılı zamanını yaşayırdı. Ordusu dağılmış, silahları alınmış, sanki əl-qolu bağlanmışdı. Mustafa Kamal Atatürk vəziyyətdən çıxış yolu axtarırdı. O, çıxış yolunu qardaş Azərbaycana müraciət etməkdə gördü.

**I aparıcı:** Atatürkün xahişi ilə Azərbaycan dövləti Türkiyəyə kömək etdi. Bununla Azərbaycan hökuməti ilə Türkiyə hökuməti arasında ilk rəsmi münasibət quruldu. Nəriman Nərimanov cavab məktubunda yazırdı: “Başqa çıxış yolu yoxdur... Məqsədinizə çatmağınız üçün bütün gücümüz ilə yanınızda olacağıq”. Elə bu dövrdən Nəriman

Nərimanovla Atatürk arasında mənəvi yaxınlıq, dostluq və qardaşlıq əlaqələri yarandı. Azərbaycandan Türkiyəyə tonlarla benzin, digər yanacaq və 500 kq qızıl göndərildi. Bu qızılın bir hissəsinə silah alındı. Digər hissəsi isə dövlət xəzinəsində saxlanıldı.

**II aparıcı:**Nəriman Nərimanov Türkiyənin qazandığı hər qələbəyə sevinir, Atatürkə təbrik məktubları yazaraq köməyini əsirgəməyəcəyini bildirirdi: “Paşam, bizim türk millətində qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq və daima əlinizdən tutacağıq”.

**I aparıcı:** Nəriman Nərimanov fəaliyyətə başlayarkən Azərbaycan artıq İrəvanı və Dərbəndi itirmişdi. Zaqatala, Zəngəzur, Naxçıvan, Qarabağ və Bakının taleyi isə mürəkkəb olaraq qalırdı. 1921-ci ildə Qarabağın Ermənistana qatılması barədə qərar qəbul edilməsinə nail oldular. Lakin Nəriman Nərimanovun kəskin müqaviməti və onun tələbi ilə bu qərar ləğv olundu. Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı.

**II aparıcı:** Nəriman Nərimanovun qətiyyəti sayəsində Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanıldı. Bakı Azərbaycanın paytaxtı kimi tanındı. Lakin o, Zəngəzurun Azərbaycandan alınmasının qarşısını ala bilmədi. Nəriman Nərimanov milli-mənəvi dəyərləri yüksək qiymətləndirir və qorumağa çalışırdı. O, məscidlərin dağıdılmasının, din xadimlərinin təqib olunmasının qarşısını alırdı.

**I aparıcı:** Nəriman Nərimanov gözəl yazıçı idi. O, “Nadir şah” və digər əsərlərin müəllifidir. Xarici dillərdə yazılan bir çox əsərlərdən Azərbaycan dilinə tərcümələr edir, həm də

dərsliklər yazırdı. Nəriman Nərimanovun öz xalqı üçün etdikləri Azərbaycan rəhbərliyinə soxulmuş erməni millətçilərinin və digər düşmənlərin xoşuna gəlmirdi. Onlar Nəriman Nərimanovu ləkələmək, onu nüfuzdan salaraq aradan götürməyə çalışırdılar. Millətini çox sevən Nəriman Nərimanovu “millətçi” adlandırdılar və onu Azərbaycandan uzaqlaşdırdılar.

**II aparıcı:** N.Nərimanov bir ata kimi oğlu Nəcəfi çox sevirdi və onun işıqlı gələcəyinə inanırdı. 2 dekabr 1919-cu ildə doğulan Nəcəf atasını itirəndə 5 yaşında idi. Alman, ingilis, fars, ərəb, türk və rus dillərini sərbəst bilən Nəcəf 1938-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) tank-texniki məktəbinə daxil olur. 1939-cu ildə onu Kiyevdəki məktəbə dəyişirlər. 1940-cı ilin oktyabrında o, məktəbi qurtarır və 15-ci tank diviziyasının 29-cu tank polkunda texnik kimi işə başlayır. Sonralar İkinci Dünya müharibəsində qəhrəmancasına döyüşən Nəcəf 10 sentyabr 1943-cü ildə, 23 yaşında həlak olur. Onun məzarı Ukraynanın Donetsk Vilayətinin Volnovaxa şəhərinin mərkəzindədir.

**I aparıcı:** Nərimanov 19 mart 1925 - ci ildə vaxtsız, müəmmalı şəraitdə Moskvada hökumət nümayəndələri ilə görüşdən bir neçə saat sonra dünyasını dəyişdi və Qızıl Meydanda Kreml divarları yanında dəfn olundu. O, ölümünə bir az qalmış oğlu Nəcəfə yazırdı: "Əziz oğlum Nəcəf. Əgər mənə yaşamaq qismət olsa, onda mən səni elə tərbiyə etməyə çalışacağam ki, insanlığa xeyir gətirəsən. Əgər mənə ölüm qismət olsa, onda mən səndən xahiş edəcəyəm ki, sən insanlara heç olmazsa, mənim, sənin atanın etdiyi qədər edəsən".

**II aparıcı:** Ölümündən sonra da ermənilər tərəfindən Nəriman Nərimanova qarşı böhtançılıq kampaniyası davam etdirilirdi. Onun yubileyinin keçirilməsinə imkan vermirdilər. Nəhayət, Azərbaycana rəhbərlik edən Heydər Əliyev bütün bu maneələri aradan qaldıraraq Nəriman Nərimanovun 100 illiyinin təntənəli şəkildə keçirilməsinə nail oldu.

**I aparıcı:** Azərbaycan xalqı Nəriman Nərimanovun xatirəsini əbədiləşdirmişdir. Bakı şəhərinin rayonlarından biri onun adını daşıyır. Bakıda Nəriman Nərimanovun böyük abidəsi ucalır. Paytaxtımızın ən böyük prospektlərindən birinə Nəriman Nərimanovun adı verilmişdir. Bundan başqa, Bakıda N. Nərimanovun xatirə muzeyi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın görkəmli yazıçısı, dövlət və ictimai-siyasi xadimi Nəriman Nərimanovun anadan olmasının 150 illiyinin qeyd edilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncam imzalaması görkəmli şəxsiyyət Nəriman Nərimanova dövlətimiz tərəfindən göstərilən diqqətin təzahürüdür.

**Ədəbiyyat siyahısı**
**Əsərləri**

***Kitablar***

Seçilmiş əsərləri. - Bakı : Çaşıoğlu, 2006. - 384 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri. - Bakı : Lider nəşriyyatı, 2004. - 496 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Seçilmiş əsərləri : [Elektron resurs]. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) - (qutuda).

Məktublar və Qarabağ məsələsinə dair sənədlər. - Bakı : Nurlar NPM, 2002. - 104 s. : il.

***Kitablarda***

Bahadır və Sona // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. - C. 1. - S. 181-220.
Bir kəndin sərgüzəştləri : hekayə // XIX-XX əsr Azərbaycan Ədəbiyyatı (Nəsr). - Bakı : Nurlar, 2012. - S. 185-193.

Nadanlıq ; Şamdan bəy ; Nadir şah // XIX-XX əsr Azərbaycan ədəbiyyatı (Dramaturgiya). III cilddə. - Bakı : Nurlar, 2014. - C. 3. - S. 412-547.

Nadir çah // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - Bakı : "Şərq-Qərb", 2007. - C.1. - S. 232-278.

Nadanlıq ; Şamdan bəy ; Nadir şah// XIX-XX əsr Azərbaycan ədəbiyyatı : 3 cilddə : Dramaturgiya. - Bakı : Nurlar, 2014. – C.3. -.412-547.

## Haqqında

**KitablarƏhmədov T**. Böyük ictimai xadim və yazıçı. - Bakı : Nurlan, 2001. - 203 s. : portr.

**Əhmədov T**. Nəriman Nərimanovun yaradıcılıq yolu. - Bakı : Nurlar, 2005. - 384 s. : şək.

**Əhmədov T**. Nəriman Nərimanov : Həyatı, mühiti, ədəbi yaradıcılığı. - Bakı : Nurlar, 2006. - 320 s. : foto.

**Əlimirzəyeva R.** Nəriman Nərimanovun yaradıcılığında maarifçi ziyalı problemi : monoqrafiya. - Bakı : Elm və Təhsil, 2010. - 144 s.

**Həsənov H**. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. - Bakı : Elm, 2005. - 248 s.

**Əhmədov T**. Nəriman Nərimanov dramaturgiyası. - Bakı : Nurlar, 2005. - 384 s.

***Kitablarda***

**Elçin.** Nəriman Nərimanov // Seçilmiş əsərləri 10 cilddə. - Bakı : Çinar-Çap, 2005. – C.8.- S. 36-60.

**Əhmədov B.** Nəriman Nərimanov // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. – Bakı : Elm və təhsil, 2011. - C. 1. - S. 350-365.

**Əhmədov T.** Nəriman Nərimanov və Azərbaycan mədəniyyəti // Ədəbi qeydlər. - Bakı : Nurlar, 2005. - S. 83-84.

**Əhmədov T.** Nəriman Nərimanovun bədii nəsri : məqalə // Ədəbi qeydlər. - Bakı : Nurlar, 2005. - S. 71-78.

**Əlioğlu M.** Atalar və oğullar : klassik dramaturgiyaya baxış // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 535-772.

**Əlioğlu M.** Klassik nəsrimizin bəzi ənənələri // Darıxan adamlar. 2 cilddə.

- Bakı : Təhsil, 2009. – C. 1. - S. 284-309.

**Əlioğlu M.** Nəriman Nərimanovun bədii əsərləri // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1.- S. 479-495.

**Kərimov İ.** N.Nərimanovun "Nadir şah" əsərinin tamaşaları // Azərbaycan teatr tarixi. - Bakı : Elm, 2008. - S. 389-417.

**Qurban T.** Türkiyə qürbətdir, Rusiya Vətən? : Məmməd Əmin Rəsulzadə və Nəriman Nərimanov // Ömür yolları. - Bakı : OL, 2013. - S. 21-35.

**Nəriman Nərimanov (1870-1925)** : həyat və fəaliyyəti haqqında qısa məlumat // XIX-XX əsr Azərbaycan Ədəbiyyatı (Nəsr). - Bakı : Nurlar, 2012. - S. 185.

**Rza R.** Xalq həkimi : Nəriman Nərimanov haqqında novella // Seçilmiş əsərləri. 5 cilddə. - Bakı : Öndər, 2005. – C.4. - S. 192-206.

# Böyük ictimai-siyasi xadim Nəriman Nərimanov

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**